# Heç kəs unudulmur, heç nə yaddan çıxmır...

Azərbaycan torpaqlarının bütövlüyü, sərhədlərinin toxunulmazlığı uğrunda canından keçən igidlərimiz zaman keçdikcə bizdən uzaqlaşsalar da, onlar heç vaxt unudulmur və heç vaxt qocalmır. Tarixin yaddaşında onlar şəhid olduqları yaşda qalır.

İllər ötdükcə bu Vətən fədailərinin sadəcə adının qarşısındakı rəqəmlər dəyişir.

Yaşasaydı, mart ayının onunda Emin Rafiq oğlu Əliyevin qırx beş yaşı tamam olacaqdı. Amma o, zamanın yaddaşında həmişə on doqquz yaşında qalacaq. Emin Əliyev Bakının Xəzər rayonu Buzovna qəsəbəsi 234 nömrəli məktəbin məzunu idi, hal-hazırda həmin məktəb Emin Əliyevin adını daşıyır.

Bu günlərdə AYB və AJB-nin üzvü, şair-publisist Gülarə Munisin Eminin qısa, amma şərəfli ömür və döyüş yolu barədə




yazdığı "Emin, sən ölməmisən..."adlı kitabı işıq üzü gördü. 1993-cü il iyul ayının 12-də Ağdamın Qalayçılar kəndi uğrunda döyüşlərdə şəhidlik zirvəsinə ucalan Eminin xatirə kitabının təqdimatı 2019-cu il mart ayının 12-nə təsadüf etdi. Təqdimat Bakı şəhəri Buzovna qəsəbəsi Ruhulla Axundov adına Mədəniyyət evində qeyd olunurdu.

234 nömrəli məktəbin 11-ci sinif şagirdi Aidə Kərimova tədbiri açıb qonaqları salamladı və qeyd etdi ki, bu müəllifin iyirmi birinci kitabıdır. Hər bir qələm sahibi kimi Gülarə Munisin də yaradıcılığında vətənpərvərlik mövzusu əsas yer tutur. Bu mövzuda yazılan kitablar böyüməkdə olan gənclərdə vətənpərvərlik hissinin formalaşmasında mühüm rol oynayır. Bu səbəbdən də kitabın təqdimat mərasimində məktəblilər də iştirak edirdi. Onlar müəllifin Emin Əliyevin xatirəsinə həsr etdiyi şeirləri əzbər söyləməklə şəhidə ehtiramlarını bildirdilər.

Buzovna qəsəbə sakini, tədqiqatçı-alim Soltan Əlizadə şəhidlərin ruhuna dualar oxudu. Sonra söz AYB Xəzər bölməsinin sədri, şair-qəzəlxan Arif Buzovnalıya verildi. O, şəhidlər barədə yazılan kitabın əsas məziyyətlərindən danışdı və belə kitabların yazılmasının nə qədər vacib olduğunu qeyd etdi. Sonra söz "Dədə Qorqud" fondu, "Azərbaycan Dünyası" jurnalının təsisçi və baş redaktoru Eldar İsmayılova verildi. Eldar müəllim də kitab barədə fikirlərini bildirib müəllifə "Mehriban ana" medalını təqdim etdi və yaradıcılıq uğurları dilədi.

***(Davamı 16-cı səhifədə)***

# Heç kəs unudulmur, heç nə yaddan çıxmır...

*(Əvvəli 11-ci səhifədə)*

Tədbirdə Respublika Qadınlar Cəmiyyətinin sədri Bahar Qasımova, onun müavini “Ağa Musa Nağıyev adına Milli Dəyərlərin Qorunması” İctimai birliyin sədri Dilarə Nağıyeva, Yasamal rayon MKS-inin direktoru, tarix elmləri doktoru Lətifə Məmmədli, yazıçı Gülzar İbrahimova, Azərbaycan Milli Tarixi Muzeyinin aparıcı elmi işçisi professor Nardanə Yusifova, 234 nömrəli məktəbin direktoru Könül Məmmədli və başqaları çıxış edərək “Emin, sən ölməmisən” adlı xatirə kitabı barədə müsbət fikirlər söylədilər.

Tarixdə xeyirlə şər həmişə yanaşı addımlayıb. 12 mart tarixi də Emin Əliyevin xatirə günü, həm də Novruz çərşənbələrindən biri olan Yel çərşənbəsi günü idi.

Qoy bu Yel çərşənbəsi Azərbaycanın üzərində olan qara buludları uzaqlara aparıb pərən-pərən etsin.

Tədbirı bayram əhvalında tamamlamaq üçün muğam ifaçıları Xasay İsmayılov və Elşən Məmmədov öz ifaları ilə məclisi zinətləndirdilər.

Tədbirdə on doqquz yaşlı şəhidin anası İbadət Əliyevaya söz verildi. O, Eminlə bağlı xatirələrini danışdı, Eminin xatirə gününə toplaşan qonaqlara təşəkkür edib kitabın müəllifi Gülarə Munisə minnətdarlığını bildirdi.

Sonda müəllif çıxış edib Ruhulla Axundov adına Mədəniyyət evinin direktoru Nursevər xanıma və tədbirin hazırlanmasında əməyi olanlara təşəkkür etdi. O, arzu etdi ki, Azərbaycanın işğal olunan torpaqları düşməndən azad olunsun və o zaman hər bir qələm sahibi qələbə barədə zəfər kitabları yazsın!



***Gülarə MUNİS***

Kredo.-2019.-4 aprel.-S11;16.